https://doi.org/10.59849/3006-1342.2025.3.47
UOT 930.85

*Sevinc Lefik qızı Axundova*
*Bakı Slavyan Universiteti*
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
*Xanım Əyyar qızı Səfərli*
*Bakı Slavyan Universitetinin magistrantı*
*E-mail:* safarlikhanim85@gmail.com

# XX ƏSRİN BİRİNCİ YARISINDA QƏRBİ AZƏRBAYCANDA ALİ PEDAQOJİ TƏHSİLİN TƏŞƏKKÜLÜ

*Məqalədə Qərbi Azərbaycan ərazisində milli maarifçilik mühiti və ali təhsilin formalaşması məsələləri təhlil edilir. Burada xüsusilə vurğulanır ki, XX əsrin əvvəllərindən başlayaraq həmin bölgədə yaşamış azərbaycanlı ziyalılar, ciddi maneələrə baxmayaraq, əhali arasında savadsızlığın aradan qaldırılması məqsədilə müxtəlif təhsil müəssisələrinin yaradılması və fəaliyyətinin təşkilinə xüsusi diqqət göstərmişdilər. Məqalədə Qərbi Azərbaycanda ali pedaqoji təhsilin təşəkkülü və inkişaf mərhələləri ilə yanaşı, həmin təhsil ocaqlarının milli məktəblər üçün ali ixtisaslı pedaqoji kadrların hazırlanmasında oynadığı mühüm rol da xüsusi vurğulanır. Bu təhsil ocaqları bölgədə savadlanma səviyyəsinin yüksəlməsində, milli pedaqoji fikrin və maarifçilik hərəkatının inkişafında mühüm rol oynamışdır.*

*Açar sözlər:* ali pedaqoji təhsil, Qərbi Azərbaycan, milli maarifçilik, İrəvan, pedaqoji kadr, savadsızlığın ləğvi

*Giriş*

Qərbi Azərbaycan ərazisi tarixən azərbaycanlıların yaşadığı qədim torpaqlardan biri olmuşdur. Bu bölgədə xalqımızın keçmişinin müxtəlif mərhələlərini əks etdirən memarlıq nümunələri, qədim qala divarları, Şərq və müsəlman memarlığına məxsus tikililər, məscidlər, mədəniyyət ocaqları, etnik kimliyimizi və dini dünyagörüşümüzü əks etdirən qəbir daşları, toponim və hidronimlər, eləcə də tarixi kitabələr mövcuddur ki, bütün bunlar azərbaycanlıların bu ərazilərdə ən qədim dövrlərdən bəri aparıcı etnos olduğunu sübut edir [1, s. 67].

Bu yerlərin əsl sahibləri və aborigen əhalisi azərbaycanlılar olsa da, tarix boyu onlar dəfələrlə öz doğma yurdlarında yaşamaq hüququndan məhrum edilmişlər. Xüsusilə, 1920–1988-ci illər arasında Qərbi Azərbaycanda baş verən ictimai-siyasi və ədəbi-mədəni hadisələr bu dövrü zəngin və yaddaqalan etmişdir. Bu zaman kəsiyində Qərbi Azərbaycanın tarixini, onun ictimai və siyasi mühitini, mədəni və ədəbi həyatını əhatə edən çoxsaylı əsərlər qələmə alınmışdır. Bununla belə, həmin tədqiqatlarda Qərbi Azərbaycanda ali pedaqoji təhsil sisteminin formalaşması və pedaqoji kadr hazırlığı məsələləri geniş və sistemli şəkildə işıqlandırılmamışdır.

**Əsas hissə.** XIX əsrin ikinci yarısından başlayaraq Qafqaz regionunda, o cümlədən Qərbi Azərbaycan ərazisində maarifçilik ideyalarının geniş yayılması və təhsilin dövlət siyasətində prioritet istiqamətlərdən birinə çevrilməsi pedaqoji təhsil müəssisələrinin formalaşmasına zəmin yaratmışdı. Rusiya imperiyasının həmin dövrdə həyata keçirdiyi təhsil islahatları çərçivəsində müəllim kadrlarının sistemli şəkildə hazırlanması məqsədilə bir sıra bölgələrdə müəllimlər seminariyalarının yaradılması mühüm əhəmiyyət kəsb edirdi. Bu istiqamətdə atılan ən önəmli addımlardan biri 1881-ci ildə əsası qoyulan İrəvan Müəllimlər

Seminariyasının fəaliyyətə başlaması olmuşdur [7, s. 79]. Qərbi Azərbaycanda ali pedaqoji təhsilin formalaşması prosesi əsasən İrəvan Müəllimlər Seminariyasının fəaliyyəti ilə bağlı olmuşdur. XX əsrin əvvəllərində baş verən siyasi dəyişikliklər- Birinci Dünya müharibəsi, İrəvan quberniyasında etnik gərginliklər və bölgədə 1918-ci ildən sonra yaranan yeni siyasi reallıqlar təhsil sisteminə də ciddi təsir göstərmişdir. Bununla belə, İrəvan Müəllimlər Seminariyası 1920-ci ilə qədər fəaliyyətini davam etdirmiş və bu dövrdə yüzlərlə ixtisaslı müəllim yetişdirmişdir. İrəvan müəllimlər seminariyası Azərbaycanın təhsil sistemində və milli müəllim kadrlarının yetişdirilməsində böyük rol oynamışdır. Sonralar seminariyanın yetişdirdiyi tələbələr müəllim kimi Azərbaycan türk uşaqlarının savadlanmasında və tərbiyəsində öz töhfələrini vermişdilər [6, s. 497].

1920-ci il noyabrın 29-da Sovet hakimiyyətinin Qərbi Azərbaycanda qurulması ilə digər respublikalarda olduğu kimi burada da təhsil və maarif sahəsində yeni, dövrün tələblərinə uyğun sistemin təşkili başlanmışdır.

1922–1923-cü illərdə İrəvanda milli məktəbləri pedaqoji kadrlarla təmin etmək məqsədilə həm qısamüddətli, həm də uzunmüddətli müəllim hazırlığı kursları təşkil olunmuş, 1924-cü ildən etibarən isə İrəvan Türk Pedaqoji Texnikumu fəaliyyətə başlamışdır. Bu addımların reallaşması Ermənistan Kommunist Partiyasının "Azsaylı xalqlar" şöbəsinin müdiri Bala Əfəndiyev və Ermənistan Xalq Maarif Komissarlığı yanında fəaliyyət göstərən "Azlıqda qalan millətlər bürosu"nun rəhbəri Mehdi Kazımovun təşəbbüsü və səyləri sayəsində mümkün olmuşdur. Kursları və texnikumu uğurla başa vuran müəllimlər Qərbi Azərbaycan bölgəsində maarifləndirmə prosesinə müəyyən dinamizm gətirmişdir. Lakin bu təhsil ocaqları tərəfindən hazırlanan pedaqoji kadrlar azərbaycanlı məktəblərin ehtiyacını tam şəkildə qarşılamırdı [2, s. 251].

Həmin dövrdə bölgədə milli mənsubiyyətə malik, ali təhsilli və ixtisaslı müəllimlərə ciddi ehtiyac duyulurdu. Digər tərəfdən, ermənilər üçün 1921-ci ildə yaradılmış İrəvan Dövlət Universiteti və onun nəzdində fəaliyyət göstərən pedaqoji fakültə erməni məktəblərinə kifayət qədər ali təhsilli müəllim təmin edirdi.

Bala Əfəndiyev, Mehdi Kazımov və "Zəngi" qəzetinin redaktoru Mustafa Hüseynov İrəvan Dövlət Universitetində azərbaycanlılar üçün də ali təhsilli müəllim hazırlayan pedaqoji fakültənin yaradılmasını dəfələrlə təklif etmişdilər [5, s. 4]. Lakin bu təkliflər bolşevik hakimiyyətində təsirli olan erməni daşnak siyasi dairələri tərəfindən rədd edilmişdir.

1930-cu illərdə Qərbi Azərbaycanda fəaliyyət göstərən ali təhsil müəssisələrinin tərkibində Azərbaycan bölmələrinin yaradılması planlaşdırılsa da, erməni şovinizminin törətdiyi müxtəlif əngəllərə baxmayaraq, azərbaycanlı ziyalıların milli və siyasi iradəsi sayəsində anadilli məktəblər üçün ali təhsilli pedaqoji kadrların hazırlanması istiqamətində müəyyən uğurlu addımlar atılmışdır. Bu çərçivədə, 1935-ci ildə Gümrü və Dilicanda təsis edilən İkiillik Müəllimlər İnstitutu azərbaycanlı məktəblərinə ali pedaqoji kadrlar yetişdirmək baxımından böyük nailiyyətlər qazanmamış olsa da, müəyyən dərəcədə əhəmiyyətli rol oynamışdır. 1943-cü ildə Gümrüdə fəaliyyət göstərən İkiillik Pedaqoji Qiyabi İnstitutun Azərbaycan bölməsini 31 nəfər bitirmiş və onlar müxtəlif regionlardakı məktəblərdə müəllim kimi fəaliyyət göstərmişdir [1,s.2]. Buna baxmayaraq, azərbaycanlı məktəblərində ali təhsilli pedaqoji kadrlar üçün tələb yüksək olaraq qalırdı. Gümrüdə fəaliyyət göstərən İkiillik Qiyabi Pedaqoji İnstitutda Bakıdan dəvət olunmuş professorlar dərs demişdilər. Belə ki, Əhməd Seyidov pedaqogika fənnindən, Muxtar Qasımov marksizm-leninizmdən, Məmmədağa Şirəliyev Azərbaycan dilindən, Məzahir Abbasov isə psixologiyadan tələbələrə dərs keçmişdir.

1930-cu ildə dövlətin maarif siyasətinin əsas istiqaməti kimi yeddiillik təhsil sisteminin tətbiqi və məktəblərin ixtisaslı müəllimlərlə təmin olunması məsələsi qarşıya qoyulduğundan, pedaqoji institutlar və universitetlərin pedaqoji yönümlü fakültələri bu

tələbata tam cavab verə bilmirdi. 1937-ci ildə İrəvanda İkiillik Müəllimlər İnstitutu fəaliyyətə başlamışdır. Həmin ildə institutun tərkibində 40 nəfərlik Azərbaycan şöbəsi açılmışdır.

Erməni şovinist dairələrinin məqsədli və hiyləgər müdaxilələri nəticəsində İrəvanda fəaliyyət göstərən İkiillik Müəllimlər İnstitutunun Azərbaycan bölməsi qısa müddət ərzində fəaliyyətini dayandırmağa məcbur olmuş, nəticədə milli pedaqoji kadr hazırlığı sahəsində arzuolunan nəticələr əldə olunmamışdır. Bununla belə, 1936-cı il yanvarın 27-də İrəvan Dövlət Qiyabi Pedaqoji İnstitutunun nəzdində Azərbaycan şöbəsinin yaradılması milli məktəblərin ali pedaqoji kadrlarla təmin olunmasında mühüm dönüş nöqtəsi olmuşdur [5, s. 4]. Həmin dövrdə bütün sovet respublikalarında olduğu kimi, İrəvanda da qiyabi təhsil forması geniş yayılmış və pedaqoji kadrların peşəkar inkişafında əhəmiyyətli rol oynamışdır. Qərbi Azərbaycanda ali təhsil almaq arzusunda olan azərbaycanlı müəllim və gənclərin ehtiyaclarını ödəmək əsasən İrəvan Dövlət Qiyabi Pedaqoji İnstitutunun üzərinə düşürdü.Bu təhsil ocağında ədəbiyyat, coğrafiya, fizika və tarix sahələri üzrə ali pedaqoji ixtisaslar üzrə mütəxəssislər hazırlanırdı. Müəllim heyətini İrəvanın nüfuzlu və peşəkar azərbaycanlı pedaqoqları təşkil edirdi. 1936–1939-cu illərdə həm İrəvan Azərbaycanlı Pedaqoji Texnikumunda, həm də İrəvan Dövlət Qiyabi Pedaqoji İnstitutunda tarix fənnini tədris edən və sonralar Azərbaycan Pedaqoji Universitetində professor kimi çalışan Nəzər Paşayev həmin dövrdə institutun Azərbaycan şöbəsinə rəhbərlik etmişdir. Həmçinin İrəvanın görkəmli maarif xadimlərindən olan Bəhlul Yusifov 1937–1943-cü illərdə, yazıçı Müzəffər Nəsirli isə 1936–1941-ci illərdə bu müəssisədə dərs demişlər. Onlar eyni zamanda İrəvan Türk Pedaqoji Texnikumunda və Ali Partiya Məktəbində də pedaqoji fəaliyyət göstərmişdilər [1, s. 2].

Təxminən 14 il ərzində fəaliyyət göstərən İrəvan Dövlət Qiyabi Pedaqoji İnstitutu milli məktəblər üçün pedaqoji kadr bazasının formalaşdırılmasında əvəzsiz xidmətlər göstərmişdir [3, s. 272]. Bu institutun məzunları arasında sonralar Azərbaycan ictimai-siyasi mühitində, mədəniyyətində, ədəbiyyatında və təhsil sistemində tanınmış simalara çevrilən şəxslər olmuşdur.

İrəvan Dövlət Qiyabi Pedaqoji İnstitutunun Azərbaycan şöbəsində də bütün azərbaycanlı təhsil müəssisələrində müşahidə olunan oxşar problemlər mövcud idi. Belə ki, tələbələrin lazımi tədris vəsaitləri və mədəniyyət xidmətləri ilə təmin olunmaması tədrisin keyfiyyətinə və səviyyəsinə mənfi təsir göstərirdi. Erməni şovinistlərinin müxtəlif sahələrdə azərbaycanlılara qarşı apardıqları məqsədyönlü və hiyləgər siyasət burada da özünü aydın şəkildə göstərirdi. 1944-cü ildə institutun Azərbaycan şöbəsinin rəhbəri vəzifəsinə, sonralar uzun illər Azərbaycan Dövlət Pedaqoji Universitetində dekan kimi fəaliyyət göstərmiş Fərhad Qulam oğlu Fərhadov təyin edildi. Onun yüksək peşəkarlığı, pedaqoji təcrübəsi, zəngin nəzəri bilikləri və təşkilatçılıq qabiliyyəti institutun Azərbaycan şöbəsinin fəaliyyətinə müsbət təsir göstərmişdir.

Azərbaycan şöbəsinə Qərbi Azərbaycanın müxtəlif bölgələrindən - Amasiya, Mığrı, Basarkeçər, Zəngibasar, Vedibasar, Qafan və digər rayonlardan tələbələr qəbul edilirdi. Buna baxmayaraq, şöbə erməni şovinistlərinin yaratdığı ağır şəraitdə fəaliyyət göstərməli idi [2, s. 251]. İnstitutun Azərbaycan şöbəsi qarşılaşdığı bütün bu çətinliklərə baxmayaraq, fəaliyyətini uğurla davam etdirmişdir.

Qısa müddətə davam edən bu imtahan sessiyasında iştirak edən 200 tələbədən yalnız 10-u qeyri-qənaətbəxş qiymət almışdır. İştirakçıların 95 faizi təhsil sahəsində çalışan kadrlar olmuşdur [4, s. 3]. Lakin, bolşevik ideologiyası ilə maskalanmış erməni daşnak rəhbərliyi 1948-ci ildə İrəvan Dövlət Qiyabi Pedaqoji İnstitutunun Azərbaycan şöbəsinin coğrafiya fakültəsinin bağlanması qərarını qəbul etmişdir. Bu qərara institut rəhbərliyi və tələbələr etiraz etsələr də, tələbləri yerinə yetirilmir.

*Nəticə*

XX əsrin ikinci yarısında Qərbi Azərbaycanda ali pedaqoji təhsilin təşəkkülü birbaşa olaraq İrəvan Müəllimlər Seminariyasının və ona bağlı digər təhsil müəssisələrinin fəaliyyəti ilə bağlı olmuşdur. Bu təhsil ocaqları yalnız müəllim kadrlarının hazırlanmasında deyil, həm də milli oyanış, mədəni inkişaf və maarifçilik hərəkatının genişlənməsində əvəzsiz rol oynamışdır.

İrəvan Dövlət Qiyabi Pedaqoji İnstitutunun Azərbaycan şöbəsi, bütün çətinliklərə və maneələrə baxmayaraq, Qərbi Azərbaycanda milli pedaqoji kadrların hazırlanmasında mühüm rol oynadı. Qərbi Azərbaycanda təhsil sahəsindəki maddi və təşkilati problemlər institutu zəiflətsə də, azərbaycanlı müəllimlərin səyi və peşəkarlığı təhsilin davamlılığını təmin etdi.

ƏDƏBİYYAT

1. Abdullayev Ə. Qiyabi təhsilin yüksək keyfiyyəti uğrunda. Qızıl şəfəq qəzeti ,(74), 2017, s. 2.
2. Allahverdiyev C. İrəvan ədəbi mühiti. Bakı: Elm və təhsil, 2023, 251 s.
3. Allahverdiyev C. İrəvan Müəllimlər Seminariyası. Bakı:Elm və təhsil, 2022, 272 s.
4. Bayramov Ə. Qiyabi Pedaqoji İnstitutunda.Sovet Ermənistanı qəzeti (7), 2019, 3 s.
5. Hüseynov H. İrəvan Dövlət Pedaqoji İnstitutunda. Sovet Ermənistanı qəzeti, (84), 1946, s. 4.
6. Qarayev E. Qərbi Azərbaycan XIX yüzilliyin ikinci yarısı - XX yüzilliyin əvvəllərində (İrəvan quberniyasının materialları əsasında), Bakı, “Füyuzat”, 2024, 564 s.
7. Rüstəmov F. İrəvan müəllimlər seminariyası və onun məzunları. Bakı: Elm və Təhsil, 2022, 240 s.

УДК 930.85

*Севиндж Лефик кызы Ахундова,*
*Ханым Аййар кызы Сафарли*
*Бакинский Славянский Университет*

СТАНОВЛЕНИЕ ВЫСШЕГО ПЕДАГОГИЧЕСКОГО ОБРАЗОВАНИЯ В ЗАПАДНОМ АЗЕРБАЙДЖАНЕ В ПЕРВОЙ ПОЛОВИНЕ XX ВЕКА

*РЕЗЮМЕ*

*Ключевые слова:* высшее педагогическое образование, Западный Азербайджан, национальное просвещение, Ереван, педагогические кадры, ликвидация неграмотности.

В статье анализируются вопросы формирования национальной образовательной среды и высшего образования на территории Западного Азербайджана. Особо подчеркивается, что с начала XX века азербайджанская интеллигенция, проживающая в этом регионе, несмотря на серьезные препятствия, уделяла особое внимание созданию и организации различных учебных заведений с целью ликвидации неграмотности среди населения. В статье, наряду с этапами становления и развития высшего педагогического образования в Западном Азербайджане, также подчеркивается важная роль этих учебных заведений в подготовке высококвалифицированных педагогических кадров для национальных школ. Эти учебные заведения сыграли важную роль в повышении уровня грамотности в регионе, в развитии национальной педагогической мысли и просветительского движения.

UDC 930.85

*Sevinj Lefik Akhundova,*
*Khanim Ayyar Safarli*
*Baku Slavic University*

# THE FORMATION OF HIGHER PEDAGOGICAL EDUCATION IN WESTERN AZERBAIJAN IN THE FIRST HALF OF THE XX CENTURY

*SUMMARY*

*Key words:* higher pedagogical education, Western Azerbaijan, national enlightenment, Yerevan, pedagogical staff, elimination of illiteracy

The article analyzes the formation of the national educational environment and higher education in the territory of Western Azerbaijan. It is especially emphasized that, since the beginning of the XX century, Azerbaijani intellectuals living in that region, despite serious obstacles, paid special attention to the establishment and organization of various educational institutions in order to eliminate illiteracy among the population. The article, while outlining the stages of the formation and development of higher pedagogical education in Western Azerbaijan, also emphasizes the important role played by these institutions in preparing highly qualified pedagogical personnel for national schools. These educational institutions contributed significantly to increasing literacy in the region and to the development of national pedagogical thought and the enlightenment movement.

***Daxil oldu: 19.11.2025-ci il***